# Ölkə polad magistralı yeni inkişaf mərhələsində

**Bu gün ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-iqtisadi, strateji kurs, inkişaf modeli onun siyasi məkəbinin ali məzunu, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə cavab verməklə uğurla həyata keçirilir. Son illər ölkə nəqliyyat sistemində, o cümlədən dəmir yolu nəqliyyatında əldə olunan böyük uğurlar, həyata keçirilən beynəlxalq miqyaslı layihələr Heydər Əliyev iqtisadi siyasətinin sayəsində mümkün olmuşdur.**

Son illər ölkə nəqliyyatının əsas qollarından biri olan dəmir yolunun perspektiv inkişafını təmin etmək üçün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilmiş, mühüm qərar və sərəncamlar imzalanmışdır ki, bu da ölkə dəmir yolunun sürətli inkişafı, müasirləşməsi üçün əsas və möhkəm zəmin yaratmışdır. Qəbul edilmiş Dövlət Proqramında ölkədə dəmir yolu nəqliyyat xidmətlərinə olan tələbatın tam ödənilməsi, ölkə dəmir yollarının beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təmin etmək üçün daha müasir nəqliyyat infrastrukturunun yaradılması, daşımalarıda yük vahidinə nəqliyyat xərclərinin azaldılması, Azərbaycanın tranzit potensialının artırılması və digər mühüm məsələlər nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən son vaxtlar dəmir yolunun inkişafı baxımından əsas məqsəd və vəzifələr, infrastruktur layihələri "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi altında vaxtında, yüksək keyfiyyətlə həyata keçirilir, ölkənin polad magistralı öz simasını tamamilə dəyişir, dünya standartlarına uyğunlaşdırılır. Bu gün "Azərbaycan Dəmir Yolları" QSC müxtəlif beynəlxalq layihələrin fəal iştirakçısı olmaqla bərabər, onların vaxtında həyata keçirilməsini təmin edir. Bu yöndə, XXI əsrin əsas böyük infrastruktur tikintilərindən olan və təkcə Azərbaycan, Gürcüstan və Türkiyə deyil, həmçinin onlarca ölkə arasında körpü rolunu oynayacaq Bakı-Tbilisi-Qars yeni dəmir yolu reallaşmaq üzrədir. Bir sözlə, "Azərbaycan Dəmir Yolları" QSC-yə Cavid Qurbanovun sədr təyin olunmasından ötən az bir dövr ərzində bu qurumun tarixində müasir tələblərə cavab verən son texnologiyaların tətbiqi və yeni inkişaf erası başlayıb.

Bu sektorda qısa müddətdə görülən məqsədyönlü işlər öz müsbət nəticələrini verir. Paytaxtımızın quru nəqliyyatında giriş qapısı olan Bakı sərnişin vağzalının müasir standartlar səviyyəsində olması, ölkəmizə gələn vətəndaşlara, ümumiyyətlə dəmir yolu vağzalının xidmətindən istifadə edən hər bir insana yüksək səviyyədə xidmət göstərilməsi üçün burada yenidənqurma işləri uğurla aparılır. Vağzalın əsas binasının fasadı, memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulur, vağzalın daxilində, xidməti otaqlarda yenidənqurma işləri görülür. Vağzalın bilet kassaları, sərnişin platformaları müasir üslubda təmir olunur və bu işlər sürətlə davam etdirilir.



Bakı və Sumqayıt şəhərləri arasında mövcud olan sərnişin sıxlığını, eləcə də avtomobil yolunda olan tıxac problemini həll etmək üçün bu şəhərlər arasında da olan dəmir yolu əsaslı təmir edildi. Belə ki, 3 mart 2015-ci ildə Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində 63 kilometr uzunluğunda baş yolların əsaslı təmirinə start verilmiş, sentyabrın 2-də işlər başa çatdırılmışdır. Sentyabr ayının 12-də Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yolasalma mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmiş, yeni marşrut üzrə hərəkət edəcək xidməti heyətlə görüşüb və demişdir: "Belə gözəl qatarlarda çox yüksək xidmət də olmalıdır. Əminəm ki, belə də olacaq. Azərbaycan dəmir yolu öz səviyyəsini qaldırır və ən yüksək standartlara cavab verməlidir. Bunun üçün bütün imkanlar var. Yeni gözəl qatarlar alınıb. Dəmir yolları tikilir, yeni xətlər açılır. Mən əminəm ki, Azərbaycan vətəndaşları bu müsbət dəyişiklikləri görəcəklər. Bu gün dəmir yolu ölkəmizin ümumi tərəqqisinə uyğun şəkildə inkişaf edir və bu sahədə islahatlara böyük ehtiyac var. Dəmir yolu sistemində minlərlə insan işləyir. Yolun xətləri hamısı yeniləşməlidir".

Bu gün Azərbaycanın önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri də "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləridir. Ölkənin tranzit potensialının artırılması istiqamətində görülən işlər bu dəhlizlərin ölkəmizin ərazisindən keçən hissəsində işlərin daha sürətlə aparılmasını zəruri etmişdir. Bu məqsədlə Prezident cənab İlham Əliyev 7 dekabr 2015-ci ildə "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalanmışdır. 20 aprel 2016-cı ildə Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədlərində, Astara çayı üzərində 82,5 metr uzunluğunda dəmir yolu körpüsünün təməlqoyma mərasimi keçirilmişdir. Astara stansiyasından İran İslam Respublikasının sərhədinə kimi 8,3 kilometr uzunluğunda yeni dəmir yolu xətti çəkiləcək və 15 ədəd süni qurğu tikiləcəkdir. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov ərazidə aparılan işlərlə tanış olub, yolun torpaq yatağına baxış keçirib. Həmin körpünün və dəmir yolu xəttinin tikintisinin 2016-cı ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Ölkə Prezidenti "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi barədə danışarkən vurğulayıb ki, bu dəhlizin sayəsində yüklər Pakistandan Hindistana, daha sonra İrana, oradan Azərbaycan ərazisindən Rusiya və Şimali Avropaya nəql ediləcəkdir. Azərbaycan müasir infrastruktura sərmayə qoyur və ümid edirəm ki, tezliklə bu marşrutdan istifadə olunmağa başlanacaqdır. Yəni, bütün bu marşrutlar bizim ərazidən keçir. Təbii ki, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və gələcəkdə bizə ölkəmizin inkişafına sərf ediləcək əlavə gəlirlər gətirəcəkdir.

"Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, əlverişli coğrafi mövqeyə malik Azərbaycan nəqliyyat xidmətlərini inkişaf etdirir, müasir infrastruktur qurur, daşımaların idarə olunması mexanizmini təkmilləşdirir və beynəlxalq nəqliyyat sisteminə inteqrasiyanı genişləndirir. Bu gün "ADY" QSC-də gedən yeniləşmə prosesinin əsas tərkib hissələrindən biri yolların əsaslı təmiridir. Son vaxtlar "Azərbaycan Dəmir Yolları" QSC-də Çexiya Respublikasının "MORAVIA STEEL" şirkətinin rəhbərliyi ilə ikitərəfli görüş keçirilmiş yolun Bakı - Böyük-Kəsik sahəsində 600 kilometr hissəsinin maddi-texniki təchizatı və əsaslı təmiri barədə İxrac Müqaviləsinə əlavə saziş imzalamışdır. Bu günə kimi 100 kilometrdən artıq dəmir yolu əsaslı təmir edilmişdir.



Son zamanlar dəmir yolunun vaqon və lokomotiv parkının yenilənməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Belə ki, ötən ilin mart ayında "Azərbaycan Dəmir Yolları" QSC ilə Rusiya Federasiyasının F.Dzerjinski adına "Uralvaqonzavod" Elmi-İstehsal Korporasiyası arasında 3100 müxtəlif təmayüllü yük vaqonunun alınması ilə bağlı müqavilə imzalanmış və qısa müddətdə yeni yük vaqonları ölkəmizə gətirilmişdir. Qazaxıstandan 10 ədəd teplovozun alınması haqqında müqavilə imzalanmış, artıq teplovozlar ölkəmizə gətirilmişdir. Yük daşımalarında istifadə olunacaq, sabit cərəyanla işləyən 4 ədəd elektrovozlar alınmışdır. Həmin elektrovozlar elektron sürətölçən və müasir dartı mühərriki ilə təchiz edilmişdir. Bundan başqa "ADY" QSC ilə Fransanın "Alston" Transportation S.A." şirkəti arasında bağlanmış müqaviləyə əsasən, Azərbaycan tərəfi bu şirkətin istehsalı olan 50 ədəd dəyişən cərəyanla işləyən yük lokomotivlərinin alınmasını planlaşdırır ki, bunların alınmasına 2017-ci ildən başlanacaqdır.

Onu da qeyd edim ki, ölkə polad magistralında gedən yeniləşmə, inkişaf prosesi MHİRK-dən yan ötməyib. Öz işini müasir tələblər səviyyəsində quran kollektivimiz cəmiyyət rəhbərliyi ilə əlbir fəaliyyət göstərir. Azərbaycan Dəmiryolçularının Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu və Əmək Məcəlləsində müəyyən edilmiş vəzifə və səlahiyyətlərindən geniş istifadə edir, həmkarlar ittifaqı üzvlərinin sosial-iqtisadi mənafelərinin və əmək hüquqlarının müdafiəsi onların maddi rifahını, sosial problemlərini və yeni mənzillərlə təminatını ön planda saxlayır. "Azərbaycan Dəmir Yolları" QSC ilə MHİRK arasında imzalanmış saziş məhz bu məqsədə xidmət edir.



Azərbaycan MHİRK-si hər ilin yekununa görə "İlin ən yaxşı müəssisəsi", "Əla yol işçisi—ilin ən yaxşı mütəxəssisi", "Firudin Ağayev" adına yol müsabiqələrinin, AHİK-in müxtəlif təmayüllü baxış-müsabiqələrində dəmir yolu təşkilatlarının iştirakını təmin edir. Bu gün dəmir yolunda çalışan əməkçilərin əmək şəraitinin yaxşılaşdırılması, əmək haqlarının artırılması, onların mənzillə təmin edilməsi cəmiyyətin sədri, millət vəkili Cavid Qurbanovun daim diqqət mərkəzindədir. Onun təşəbbüsü və qayğısı sayəsində peşə bayramı ərəfəsində 37 nəfər dəmiryolçu mənzillə təmin ediləcəklər. Bütün bu işləri dəmiryolçular tərəfindən böyük məmnunluq, minnətdarlıq hissi ilə qarşılanır.

2016-cı ilin ötən yay mövsümündə MHİRK-in "Lokomotiv" İstirahət Mərkəzində 1200 nəfər ailə üzvləri ilə bir yerdə istirahət etmişlər. Bundan başqa Yükdaşımalar İnfrastruktur Departamentinin işçiləri də 3 günlük istirahətə göndərilmişdir. Cari ilin əvvəlindən həmkarlar tərəfindən 1000 (min) nəfərə 150 min manat həcmində maddi yardım göstərilmişdir. MHİRK bundan sonra da dəmiryolçuların maddi və sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində səylərini davam etdirəcək, ölkə polad magistralının inkişafına öz layiqli töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edib "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanov başda olmaqla bütün bu sahədə çalışanları peşə bayramı münasibətilə təbrik edir, onlara möhkəm cansağlığı, işlərində yeni-yeni nailiyyətlər arzulayıram.

**Fəzail BAĞIROV,**
**Azərbaycan Dəmiryolçularının MHİRK-nin sədri.**